# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 493** **Bakı şəhəri, 30 dekabr 2023-cü il**

***"Dövlət satınalmalarının vahid internet portalı haqqında Əsasnamənin və elektron satınalmanın keçirilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında***

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 avqust tarixli 2307 nömrəli Fərmanının 2.2.6-cı yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Dövlət satınalmalarının vahid internet portalı haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

**2.** "Elektron satınalmanın keçirilməsi Qaydaları" təsdiq edilsin (əlavə olunur).

**3.** Bu Qərar 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

Xalq qəzeti .- 2024.- 10 yanvar, № 003.- S.8.